# "AzInTelecom" MMC-nin Sağlamlıq və əməyin təhlükəsizliyi üzrə Siyasəti

"AzInTelecom" MMC Azərbaycan və xarici ölkələr arasında mübadilə olunan beynəlxalq səs trafiki, Azərbaycana idxal olunan telekommunikasiya vasitələrinin sertifikatlaşdırılması və Data Mərkəzi nəzdində "İnfrastruktur xidmət kimi (IaaS)" xidmətlərinin təşkili zamanı əməkdaşlar və podratçıların təhlükəsiz və sağlam mühitdə işləməsinin təmin olunmasına dair aşağıdakıları öz öhdəliyinə götürür:

- ✓ Əməyin təhlükəsizliyinə dair bütün təhlükələrin müəyyən edilməsi, qiymətləndirilməsi və onların risklərinin və ya təsirlərinin qəbul oluna biləcək həddə qədər idarə edilməsi;
- ✓ Əməyin təhlükəsizliyinə dair müvafiq qanunvericiliyə uyğunluq;
- ✓ Bədbəxt hadisələrin qarşısının alınması;
- ✓ Hadisələrə və yaralanmalara səbəb olan şərait və davranışlara qarşı tolerantlıq göstərilməməsi;
- ✓ Təşkilatın Sağlamlıq və əməyin təhlükəsizliyi siyasətinin işçilər arasında əlaqələndirilməsi;
- ✓ Qərarların qəbul edilməsi zamanı şirkət əməkdaşlarının iştirakının təmin edilməsi;
- ✓ Sağlamlıq və əməyin təhlükəsizliyi işinin davamlı inkişafı.

**"AzInTelecom" MMC-nin direktoru vəzifəsini icra edən** **Leyla Məmmədova**